


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 219 (24.356)

*25 noyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev SPECA-nın Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərə gələn dövlət və hökumət başçıları ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərə gələn Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də həmin tədbirdə iştirak etmək üçün ölkəmizə gələn Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvi, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

***

Noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından rəsmi nahar verilib.




## Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşü keçirilir

### *Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edir*




Noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edir.

Azərbaycan Prezidenti Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli beynəlxalq təşkilatların nümayəndələri.

Xanımlar və cənablar.

Mən sizi səmimiyyətlə salamlayıram, qonaqlarımıza “Xoş gəlmisiniz!” deyirəm.

Bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Zirvə görüşünün keçirilməsi ilə əlaqədar Azərbaycanın təşəbbüsünə dəstək verdikləri üçün Mərkəzi Asiya ölkələrinin rəhbərlərinə təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər. Əminəm ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq.

SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur.

Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar.

Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilmişdir. Azərbaycan Etimad Fonduna 3,5 milyon ABŞ dolları ayıracaq.

SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir.

Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır. Sentyabr ayında mən Düşənbədə keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə ilk dəfə fəxri qonaq kimi dəvət olunmuşam. Dəvətə görə bir daha təşəkkür edirəm. Hazırkı Zirvə görüşünü Düşənbə görüşünün məntiqi davamı kimi qiymətləndirirəm.

Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun, təxminən, 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq




səviyyəsi, təxminən, 50 faizdən 5,5 faizə düşüb.

Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Hörmətli həmkarlar.

Müstəqilliyimizin ilk illərində ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazilərinin, təxminən, 20 faizi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur.

Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində “Qarabağ Ermənistandır və nöqtə” açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi.

2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik.

Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar.

Buna cavab olaraq və “boz zona”ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik. Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq. Bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələrə təşəkkürümü bildirirəm.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər “Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.

Bu ilin avqust ayında Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin açılışı oldu. Qazaxıstanın hədiyyəsi – Kurmanqazı adına yaradıcılıq mərkəzi hazırda Füzulidə inşa edilir və gələn il açılacaq. Bu qardaşlıq dəstəyinə görə Şavkat Miromonoviç Mirziyoyevə və Kasım-Jomart Kemeleviç Tokayevə bir daha təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda dövlət və hökumət başçılarına dəvətimi qəbul edib Zirvə görüşündə iştirak etdiklərinə görə bir daha təşəkkür edir və Zirvə görüşünün əlaqələrimizə yeni təkan verəcəyinə əminliyimi bildirirəm.

***

Sonra digər dövlət və hökumət başçıları çıxış etdilər.

**AZƏRTAC**

# Azadkənddə məktəb istifadəyə verilib, Ordubad internat tam orta, texniki peşə və sürücülük məktəblərinə baxış olub





















Noyabrın 24-də Ordubad rayonunun Azadkənd tam orta məktəbi istifadəyə verilib.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

Məlumat verilib ki, 2000-ci ildə tikilən 288 yerlik məktəb binası bu il əsaslı təmir olunub. 3 mərtəbəli təhsil ocağında 16 sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, şahmat sinfi, kompüter və müəllimlər otaqları, həkim kabinəsi, STEAM otağı, kitabxana, bufet və idman zalı yerləşir. Məktəbdə 23 kompüter və 4 elektron lövhə quraşdırılıb, internetə çıxış təmin edilib.

Məktəbin müəllimləri ilə görüş zamanı səlahiyyətli nümayəndə Fuad Nəcəfli Naxçıvan təhsilinin hər zaman ümumölkə səviyyəsində qabaqcıl yerlər tutduğunu və ali məktəblərə qəbul göstəricilərinin yüksək olduğunu qeyd edib. Lakin son bir neçə il üzrə aparılan təhlillər onu göstərir ki, şagirdlərin gələcəyin layiqli vətəndaşları kimi yetişmələri üçün tədrisin keyfiyyəti daha da artırılmalıdır. Bu məqsədlə təhsil sahəsində yeni layihələr icra olunacaq, ötən illərdən qalan nöqsan və problemlər aradan qaldırılacaq.

Elm və təhsil naziri Emin Əmrullayev kollektivi təbrik edərək Naxçıvanda yaxşı təhsil ənənələrinin olduğunu bildirib. Qeyd olunub ki, belə müasir məktəb binalarının



istifadəyə verilməsi bu ənənələrin innovativ yeniliklər əsasında daha da təkmilləşdirilməsinə imkan verəcək.

Müəllimlərdən Əhliman Əsgərov bu cür müasir tədris ocağının istifadəyə verilməsinin kollektivi olduqca sevindirdiyini qeyd edib.

Vurğulanıb ki, hazırda Azadkənd tam orta məktəbində 155 şagird təhsilini davam etdirir. Onların təlim-tərbiyəsi ilə məşğul olan 22 müəllimdən 4-ü işə qəbul üzrə keçirilən müsabiqə vasitəsilə təyin olunmuş gənc müəllimlərdir.

Məktəbin həyətində açıq idman qurğuları və qazanxana tikilib, yaşıllıq sahəsi yaradılıb.

Sonda məktəbin kollektivi ilə xatirə fotosu çəkdirilib.

Həmin gün Ordubad şəhər internat tam orta, texniki peşə və sürücülük məktəblərinə də baxış olub.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev hər iki tədris ocağının mövcud durumu ilə maraqlanaraq təhsil ocaqlarının keyfiyyət göstəricilərinin yüksəldilməsi məqsədilə təkliflərə dair fikir mübadiləsi aparıblar.

**"Şərq qapısı"**

## Elm və təhsil naziri muxtar respublikaya səfər edib





Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində ilk olaraq Babək rayonunun Yarımca kənd tam orta məktəbində olub. Məlumat verilib ki, məktəb 2004-cü ildə istifadəyə verilib. 2016-cı ildə isə əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilib. 342 yerlik məktəb binasında şagird və müəllimlər üçün hərtərəfli şərait vardır. Hazırda məktəbdə 300-dən artıq şagirdin təlim-tərbiyəsi ilə 35 müəllim məşğul olur. Məktəbdə 4-ü elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, müəllimlər, STEAM və şahmat otaqları, kitabxana və idman zalı yerləşir. Məktəb kitabxanasında 6 mindən çox ədəbiyyat və dərslik vardır.

Məktəbin kompüter otağında 19 kompüter quraşdırılıb və internetə qoşulub. Elektron lövhəli siniflərdə distant və elektron dərslərin keçilməsi üçün lazımi şərait yaradılıb, məktəb elektron dərsliklərlə təmin edilib.

Təhsil naziri siniflərdə, STEAM otağında, idman zalında olub, şagirdlərin təhsilləri ilə maraqlanıb.

Nazir səfər çərçivəsində Naxçıvan Qarnizonu tam orta məktəbində də olub. Məlumat verilib ki, məktəb 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və xeyir duası ilə Naxçıvan şəhərində yerləşən hərbi hissələrdə xidmət edən hərbçi övladlarının təhsil alması üçün yaradılmışdır. Fəaliyyəti dövründə məktəb hər zaman təhsil uğurları, idman nailiyyətləri və olimpiada qalibləri ilə fərqlənib. Belə ki, son doqquz ildə məktəbin buraxılış və qəbul imtahanı nəticələri 90-100 faiz aralığında dəyişmişdir. Son beş ildə isə məktəbin ali təhsil müəssisələrinə qəbul nəticələri 100 faiz olmuşdur. Hazırda məktəbdə 36 sinif komplektində 634 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 59 müəllim məşğul olur.



***Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev*** “Şərq qapısı” qəzetinə müsahibə verib: – Artıq iki gündür ki, Naxçıvandayıq. Bu iki gün ərzində Naxçıvan Muxtar Respublikasında maraqlı tədbirlərdə iştirak etdik. İlk növbədə, “Qərbi Azərbaycana qayıdış” festival-konqresini xüsusi qeyd etmək istərdim. Bu tədbir çox əhəmiyyətli idi. Tədbirdə nüfuzlu elm adamlarının çıxışları oldu. Həm gənc nəslin maariflənməsində, həm də siyasi-ideoloji işin qurulmasında belə tədbirlərin keçirilməsi olduqca vacib əhəmiyyət kəsb edir. Qəzetiniz vasitəsilə fürsətdən istifadə edib, bu konqresin təşkilində əməyi keçən muxtar respublika rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bu gün isə biz muxtar respublikada fəaliyyət göstərən müxtəlif məktəblərdə olduq. Xüsusilə qeyd etmək istərdim ki, Naxçıvanda təhsilin keyfiyyəti müsbətdir. Bu da Naxçıvan müəllimlərinin əməyinin nəticəsidir. Qarnizon məktəbində bir neçə dərsdə şagirdlərlə də ünsiyyətimiz oldu. Mən səmimi olaraq bildirim ki, çox müsbət təəssüratla həmin məktəbdən ayrıldım.

Bildiyiniz kimi, bu gün həm də Naxçıvan STEAM mərkəzində vətəndaş qəbulu da həyata keçirdik. Vətəndaş qəbulu ilə bağlı istərdim ki, bəzi fikirlərimi paylaşım. İlk olaraq onu deyə bilərəm ki, təbii olaraq təcrübədə tətbiq olunan mexanizmlər arasında müəyyən fərqlər müşahidə olunur. Təhsildə bir çox xidmətlər və istiqamətlər var. Elm və Təhsil Nazirliyi olaraq onların hər biri ilə bağlı müəyyən prosedurlar hazırlamışıq və hazırda həmin prosedurları təhsildə tətbiq edirik. Bu prosedurların olması həm vətəndaşların ünsiyyətdə, həm də istər şikayətlər, istər narazılıqlar kimi müraciətlərin yaranmasında bizə çox kömək edir.

Onu da qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikası Elm və Təhsil Nazirliyi ilə birgə artıq fəaliyyət planımız var. Məqsədimiz odur ki, ümumtəhsil müəssisələrinə direktor və direktor müavinlərinin təyinatı, müəllimlərin işə qəbulu imtahanı, sertifikasiya və bunun nəticəsində əməkhaqqının artırılması ilə bağlı verilən qərarlar, həmçinin müəllimlərin saat bölgüsü ilə bağlı alqoritmlər, bölgünün hansı qaydada aparılması, digər təhsil müəssisələrinə işə qəbul, şagird yerdəyişməsi və bununla bağlı məlumatların toplanması kimi oxşar prosedurlar mərkəzləşdirilmiş qaydada həyata keçirilsin. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi olaraq inanıram ki, artıq bir yol xəritəmiz var. Növbəti il ola bilər ki, müəllimlərin işə qəbulu imtahanı sinxronlaşdırılsın. Amma, təbii ki, burada muxtar respublikanın özəl xüsusiyyətləri nəzərə alınmalıdır. Yəni Naxçıvanda qeydiyyatda olan, Naxçıvanda yaşayan və yaxud da Naxçıvana geri dönmək istəyən insanların burada işlə təmin olunması məsələsi prioritetdir. Digər problemlər də ümid edirik ki, qısa müddət ərzində aradan qaldırılacaq. Ümumilikdə, qeyd etmək istərdim ki, hazırda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrində təhsilin keyfiyyəti Azərbaycanın digər bölgələri ilə müqayisədə daha yüksəkdir. Digər məsələləri də tətbiq etməklə keyfiyyəti daha da yaxşılaşdıra bilərik.

✍ **Gülcamal TAHİROVA**

## Festival-konqres iştirakçıları: “Bizim məqsədimiz tarixi dədə-baba torpaqlarımıza sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində qayıtmaqdır”



*Noyabrın 24-də Naxçıvanda ilk dəfə keçirilən Qərbi Azərbaycana qayıdışa həsr olunmuş festival-konqres öz işini bölmə iclasları ilə davam etdirib, iclaslarda müxtəlif istiqamətlər üzrə məruzələr dinlənilib. Həmçinin həmin gün Qərbi Azərbaycan nümayəndə heyətinin Ordubad və Çalxanqalada görüşləri keçirilib, Qərbi Azərbaycana həsr olunmuş filmlər nümayiş etdirilib, AMEA Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin müdiri, dosent Hacı Həsənovun müəllifi olduğu “İrəvan şəhərinin XIX-XX əsrin əvvəlləri tarixinə dair” kitabının təqdimatı olub. Festival-konqres iştirakçıları fikir və düşüncələrini, təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşüblər:*

***Nazim Mustafa – Prezident Kitabxanasının şöbə müdiri:*** – Artıq ikinci gündür ki, Qərbi Azərbaycana qayıdışla bağlı konqres öz işini davam etdirir. Konqresin birinci günündə müxtəlif istiqamətlərdə məruzələr dinlənildi, festival keçirildi. Naxçıvana təkcə Azərbaycanın digər şəhərlərindən deyil, Türkiyədən də çoxlu alimlər dəvət olunub və konqresdə iştirak edirlər. Bu konqresin əhəmiyyəti ondan ibarətdir ki, Qərbi Azərbaycana qayıdışla bağlı burada həm müxtəlif istiqamətlərdə məruzələr dinlənilir, həm də perspektiv yollar müəyyən edilir, ayrı-ayrı müəlliflərin, mütəxəssislərin fikirləri öyrənilir. Praktiki önəm isə ondan ibarətdir ki, festival çərçivəsində Qərbi Azərbaycandan gələrək Naxçıvanda məskunlaşmış soydaşlarımızın əl işləri, sənət nümunələri və digər qədim əşyaların sərgisi təşkil olundu. Bunların hamısı yaddaşın bərpasına xidmət edir. Ölkə Prezidentinin də dediyi kimi, biz Qərbi Azərbaycana silahla deyil, dinc yolla qayıdacağıq. Belə tədbirlərin keçirilməsi zəmin yaradacaq ki, bu məsələ yaxın gələcəkdə öz həllini tapsın.

***Piralı Əliyev – Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri:*** – Festival-konqresə tezisimi göndərmişdim. Redaksiya heyəti tərəfindən qəbul olunan tezisimin mövzusu “Aşıq Ələsgər poeziyasında Qərbi Azərbaycanın tərənnümü”dür. Çıxışım da bu istiqamətdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qərbi azərbaycanlılarla görüşü zamanı çıxışında gələcəkdə qarşıda duran məsələləri tam aydın şəkildə bildirmişdir. Həmin çıxışdan irəli gələn məsələlərlə əlaqədar Naxçıvanda təşkil edilən festival-konqresi çox yüksək qiymətləndirirəm. Düşünürəm ki, Naxçıvan Dövlət Universiteti bu layihəni çox uğurla başladıb.

***Dilqəm Əhməd – İstanbul Universitetinin doktorantı, “Çapar” dərgisinin baş redaktoru:*** – İrəvanda doğulan biri olaraq bu festivalda iştirak etmək mənim üçün əhəmiyyətlidir. Təşkilatçılara dəvət üçün təşəkkür edirəm. Artıq ikinci gündür ki, festivaldayıq. Bu gün də məruzələr dinlənildi. Təqdimatlar oldu. Bildiyiniz kimi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası Prezidentimiz cənab İlham Əliyev tərəfindən irəli sürülüb. Bu konsepsiya beynəlxalq hüquqa söykənərək sülh yolu ilə qayıdışı özündə ehtiva edir. Ümid edirəm ki, qısa zamanda bu konsepsiya uğurlu nəticəsini göstərəcək və biz Qərbi Azərbaycana, doğulduğumuz ana Vətənimizə qayıdacağıq. Həqiqətən də, insanın doğulduğu Vətəni görə bilməməsi çox acınacaqlı bir duyğudur. Bilirsiniz ki, biz 44 günlük Vətən müharibəsindən sonra qələbə qazandıq. Artıq qarabağlılar öz yurd-yuvalarına köçürülürlər. Niyə də qərbi azərbaycanlılar öz torpaqlarına köçməsinlər? Öz doğma yurd-yuvalarında yaşamasınlar? Cənab Prezident çıxışlarında deyir ki, tarixi torpaqlarımız azad olunacaq, biz Qərbi Azərbaycana qayıdacağıq. Birinci mərhələ tamamlandı, ümid edirik ki, Prezidentimizin güclü siyasi qərarları ilə biz tezliklə Qərbi Azərbaycana qayıdacağıq. İki gündür, keçirilən Qərbi Azərbaycana qayıdışla bağlı festival-konqresin də, bu mənada, çox əhəmiyyətli olduğunu düşünürəm.

***Elnur Kəlbizadə – AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru:*** – Qərbi Azərbaycana qayıdışla bağlı festival-konqresin keçirilməsi müasir tariximizin ən möhtəşəm hadisələrindən biridir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə qəbul etdiyi qərarlardan, atdığı addımlardan sonra bununla bağlı keçirilən ən böyük tədbirlərdəndir. Düşmənlərimizə, Azərbaycanı sevməyən qüvvələrə Qərbi Azərbaycana qayıdışın ayaq səslərini eşitdirən hadisələrdəndir. Bu konqres bu gün erməni mətbuatında, kütləvi informasiya vasitələrində Ermənistandakı azərbaycanşünaslar tərəfindən çox ciddi şəkildə müzakirə olunur. Bu o deməkdir ki, artıq bu festival-konqres özünün ilkin məqsədlərinə, ilkin hədəflərinə nail olub. Amma ermənilərin atdığı iftiralardan fərqli olaraq bizim məqsədimiz tarixi dədə-baba torpaqlarımıza sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində qayıtmaqdır. Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində bir çox sənədlərdən öyrənirik ki, Ümummilli Lider hələ birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə Qərbi Azərbaycan mədəniyyətinin qorunması üçün çox mühüm qərarlar qəbul etmişdir. Bu qərarların sırasında Aşıq Ələsgərin, Aşıq Alının yubileylərinin qeyd olunması ilə bağlı bir sıra qərarlar vardır. O qərarların mətnlərinin analizi çox aydın şəkildə göstərir ki, həmin qərarlarda həm də bu ərazilərin azərbaycanlıların tarixi yurdu olduğu məsələsi əksini tapmışdır.



***Əpoş Vəliyev – Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Qərbi Azərbaycan folkloru şöbəsinin aparıcı elmi işçisi:*** – Bu gün Naxçıvan, bütün qərbi azərbaycanlılar, ümumiyyətlə, ölkəmiz üçün əlamətdar bir gündür. Qardaş Türkiyə universitetlərinin rektorları, oranın elmi işçiləri, ziyalıları bu konqresdə iştirak edirlər. Düşünürəm ki, bu konqres qərbi azərbaycanlıların öz doğma yurd-yuvasına, ata-baba torpağına qayıtması üçün atılan ilk addımlardan biridir. Konfransın açılış hissəsində iştirakdan məmnunluq duyduq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycan İcması ilə görüşündə bizim Qərbi Azərbaycana mütləq qayıdacağımızdan bəhs etmişdir. Bizim Qərbi Azərbaycan folkloru şöbəsi hazırda qərbi azərbaycanlıların folklorunu araşdırır, yaşlı nəslin yaddaşında olan xatirələri yazıya köçürürük.

✍ **Bülbül QULİYEVA**
✍ **Aysel YUSİFZADƏ**
✍ **Sürəyya QƏDİMƏLİYEVA**

## Festival-konqres iştirakçıları Ordubad və Kəngərli rayonlarının qərbi azərbaycanlılar yaşayan kəndlərində olublar



*“Qərbi Azərbaycana qayıdış” festival-konqresi iştirakçılarının Ordubad və Kəngərli rayonlarına səfəri təşkil olunub.*

Ordubad rayonuna səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan qərbi azərbaycanlılarla görüş keçirilib. Həmçinin Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri nümayiş etdirilib. Görüşün keçirildiyi məkanda qonaqlar üçün konsert proqramı təşkil olunub.



“Qərbi Azərbaycana qayıdış” festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla görüşüb, Çalxanqala kənd mərkəzində qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgiyə baxıblar.





Sonra Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova və digər çıxış edənlər Qərbi Azərbaycan torpaqlarından deportasiya olunan soydaşlarımızın tezliklə doğma yurdlarına qayıdacaqlarına əminliyini bildirib, təşkil edilən festival-konqresin, qərbi azərbaycanlılarla görüşün bu baxımdan mühüm əhəmiyyət daşıdığını vurğulayıblar. Saz ifaları və müxtəlif musiqi nömrələri maraqla qarşılanıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**




# Azərbaycanın siyasi müstəvidəki qələbəsinin təntənəsi

*"Xatırlayıram, nə az, nə çox, düz 30 il bundan öncə sıldırım dağların arasından uzanan dolanbac, palçıq yollar bizi bilmədiyimiz bir ünvana aparırdı. Dayanmadan irəlilədiyimiz dağ yolunun, dağlıq ərazinin ətəklərindən kəndimiz, doğma yurdumuzun gözoxşayan mənzərəsi aydın görünürdü. Uşaqlıq illərimdən bu mənzərənin vurğunu olmuşam desəm, yəqin ki, yanılmaram. Amma bu dəfə görünənlər fərqli idi. Tək mənim üçün yox, xatirələri, ümidləri düşmənin bir güllə̇si ilə qaranlığa qərq olan bütün qarabağlı uşaqlar üçün də bu belə idi. Biz Qarabağ uşaqlarıyıq… Vətənin istənilən yerindən bizi soruşsanız, deyəcəklər ki, bu elin davamçıları tar-kaman üstə doğular, elmlə, maariflə böyüyər. Ancaq o illər belə olmamışdı. 90-cı illəri deyirəm. Bu illərdə doğulan, ya da uşaqlığı bu dövrlərə təsadüf edənlərin taleyi mərmi üstə doğulub, dağ-dərələrdə böyüməyə təsadüf etmişdi. Mənim yaşadığım uşaqlıq xatirələrində olduğu kimi… O dolanbac yollar isə bizi yurddan-yurda aparır, Azərbaycanın bir guşəsindən – Kəlbəcərdən qaçqın, məcburi köçkün həyatı yaşamağa aparır. Getdiyimiz səmtin, yolun hara çıxacağını isə biz yox, yalnız bir Allah bilirdi".*



Yuxarıda qeyd etdiyimiz bu ağrılı-acılı sətirlər Kəlbəcərdə doğulub, boya-başa çatmış, o yurdun havasını udmuş bir sakinin – kəlbəcərli xanımın dilindəndir. İllər əvvəl mətbuat orqanlarının birində müsahibəsini oxumuşdum, o qədər təsirlənmişdim ki, Kəlbəcər işğaldan azad olunan zaman paylaşacağam deyib, qeyd dəftərçəmin bir kənarına həkk etmişdim. Bu kəlmələr yalnız uşaqlığı qaranlıq, zülmət aləmi xatırladan, atasını şəhid verən, ailə üzvləri erməni vandalları tərəfindən girovluq həyatı yaşamağa məhkum edilən kəlbəcərlinin xatirəsi deyil. Bu həm də o illərdə bütün Azərbaycan xalqının qəlbindəki iztirabların, çətinliklərin təcəssümüdür, Qarabağın hayqırtısı, soydaşlarımızın fəryadıdır…

1993-cü il 2 aprel… Bu tarixdə Azərbaycanımızın ərazi cəhətdən ən böyük rayonu olan Kəlbəcər dörd bir tərəfdən mühasirəyə alınmışdı. İllərdir, bu diyarda yurd-yuva salmış insanlar sıldırım qayaların arası ilə uzanan yollara pənah aparıb, Vətənimizin digər bölgələrinə üz tutmuş, ev-eşiklərini tərk etməyə məcbur edilmişdilər. Onların böyük bir hissəsi isə erməni işğalçıları tərəfindən əsir götürülmüşdü. Evini, ailəsini qorumağa cəhd edən əliyalın insanları isə işgəncələrlə şəhid edilməklə kimi bir acı sonluq gözləyirdi. Həmin gün düşmənin ani hücumu qeyri-bərabər döyüşün müqəddəratını da dəyişmişdi. Dörd bir tərəfdən mühasirəyə alınan Kəlbəcərin 60 minə yaxın sakini od-alovun içində qalmışdı sanki. Tək çıxar yol isə Murovdağ silsiləsinin sıldırımlı qayalarına dırmanmaqla Kəlbəcəri, doğma yurdu tərk etmək idi…

Yurdunu, elini, obasını qorumaq istəyən soydaşlarımızın mübarizəsinə baxmayaraq, Kəlbəcər rayonu işğal edildi. Erməni vandalları tərəfindən rayon ərazisində olan tarixi-memarlıq abidələri, yaşayış binaları, evlər namərd düşməndən öz "nəsibini" aldı. 19 ibtidai, 33 səkkizillik, 44 orta məktəb binası, 1 texnikum, 1 texniki peşə məktəbi, 82 internat, 16 uşaq bağçası, 38 körpələr evi, 41 mədəniyyət evi, 1 rayon mərkəzi xəstəxanası, 1 rayon mərkəzi uşaq xəstəxanası, 9 kənd xəstəxanası, 23 kənd ambulator məntəqəsi, 2 mineral sudoldurma zavodu, 1 qızıl zavodu, 1 civə zavodu və bununla bərabər neçə-neçə maddi mədəniyyət kompleksləri dağıdılıb məhv edildi. Bir sözlə, Kəlbəcər rayonu yerlə-yeksan olundu…

Kəlbəcər işğal edilənə qədər bu rayonda da soydaşlarımız türk mədəniyyətini yaşadan zəngin irs formalaşdırmış, onu gələcək nəsillərə əmanət etmişdilər. Elə götürək "Kəlbəcər" toponiminin yaranmasını. Tarixi qaynaqlarda qeyd olunur ki, "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer (car) isə "qala" mənasını verir. Onu da qeyd edək ki, Kəlbəcərdəki oronomik toponimlərin hamısı türkmənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır.

Zəngin tarixi ənənələri, bədii irsi, qonaqpərvər insanları ilə sevilən-seçilən Kəlbəcər rayonu həm də Azərbaycanımızın siyasi müstəvidəki nailiyyətinin, qələbəsinin təntənəsi idi. Çünki 44 günlük Vətən müharibəsində ağır şərtli kapitulyasiya aktı ilə məğlubiyyətini qəbul edən Ermənistan Ağdam və Laçın şəhərləri ilə yanaşı, Kəlbəcəri də məhz siyasi yollarla dövlətimizə geri qaytardı. Tale bu dəfə də düşmənin üzünə güldü. Onlar bir zamanlar Azərbaycandan qoparıb özlərinə "dövlət" yaratmış torpaqlara bizim günahsız soydaşlarımız kimi şaxtalı, sazaqlı havada qayıtmadılar. Atılmalı, ancaq onlar üçün dəyərli olan əşyalarını alıb, ağacları yandırıb, ev-eşiklərə od vurub, Kəlbəcər rayonunu bir aya yaxın müddətdə tərk etdilər.

İllər əvvəl elini, obasını çarəsizcə tərk etmiş bütün kəlbəcərlilər isə Ali Baş Komandandan gələn xoş xəbərləri gözləyirdi. Məqam yetişdi, zaman gəldi. Üç il bundan öncə, bax elə bu gün – noyabr ayının iyirmi beşi idi. Qalib dövlətin mübariz rəhbəri xalqına müraciət edərək dedi: ***"Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur".***

44 günlük Vətən müharibəsindən ötüb keçən bu zamanın qısa təhlili göstərir ki, işğaldan azad edilmiş ərazilərimizdə böyük işlər görülüb, tikinti-quruculuq, abadlıq işləri aparılıb. Bir sözlə, Qarabağ yenidən dirçəlib və müasirləşmək yolunda inamla irəliləyir. Bu gün biz həmin müqəddəs ərazilərə səfər etdikdə yalnız inkişaf və tərəqqi dolu mənzərələr görürük.

Şəhid qanları tökülmüş elimizə, obamıza səfərlərinin hər birində Ali Baş Komandanımız ***"Biz Qarabağı dirçəldəcəyik!"*** sözlərini xatırlatmaqla yola çıxıb, böyük layihələrə imza atıb, hər səfər yaddaşlarda dərin iz buraxıb. Xatırladaq ki, 2021-ci il 16 avqust tarixdə Kəlbəcərə edilən səfər də maraqlı, əlamətdar hadisələrlə yadda qalmışdı. Səfər zamanı Ali Baş Komandan yol boyunca gördüyü, müşahidə etdiyi mənzərələrin şərhini belə vermişdi xalqımıza: ***"Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol, demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma, hələlik, biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm".***

Ali Baş Komandanın 2021-ci il 16 avqust tarixdə etdiyi səfər Kəlbəcər şəhərinin tarixi taleyi üçün bir sıra maraqlı, taleyüklü işlərlə yadda qaldı. Xüsusən də ölkəmizin iqtisadiyyatına təkan verəcək müəssisələrlə – "Kəlbəcər-1" Su Elektrik Stansiyasında və Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında gedən işlərlə tanışlıq qədim şəhərin müasir inkişaf tendensiyasının xəbərini verdi. Həmçinin Kəlbəcər və Laçın şəhərləri arasında çəkilən 73 kilometrə yaxın yolun və yol üzərində yerləşəcək 4 kilometr uzunluğundakı tunelin tikintisi ilə yaxından tanışlıq da bu tarixi səfərin təntənəsi idi.

Dövlət başçısının ötən il 27 may tarixində Kəlbəcər rayonuna etdiyi səfər tarixi əhəmiyyəti, həmçinin bir sıra sosial-iqtisadi layihələrin icrası baxımından seçilib. Belə ki, Ali Baş Komandan səfər zamanı Yanşaq və Zallar kəndlərinin təməlqoyma mərasimlərində, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Qamışlı" və "Meydan" Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib. Bununla yanaşı, Prezident cənab İlham Əliyevə uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlər barədə məlumat verilib. Dövlətimizin başçısı bu səfər zamanı Kəlbəcərdə hərbi hospitalın açılışında, yaşayış məhəlləsinin və 960 şagird yerlik məktəbin təməlqoyma mərasimlərində də iştirak etmişdi.

Uzun illər erməni vandalizminin qurbanı olmuş Qarabağımız həm də zəngin iqtisadi potensiala, biomüxtəlifliyə malik diyardır. Təsadüfi deyil ki, 30 illik erməni işğalı müddətində buranın istər iqtisadi-sosial, istərsə də milli-mədəni irsinə böyük ziyan dəymiş, zəngin təbiəti məhv edilmişdir. Lakin 44 günlük Vətən müharibəsindən sonra Ali Baş Komandanın göstərişi ilə bir sıra dünya əhəmiyyətli təbii resurslara diqqət artırıldı, onların bərpası istiqamətində böyük işlər görüldü, iqtisadi potensialın gücləndirilməsi istiqamətində qabaqcıl addımlar atıldı. Bu il avqust ayının 25-də dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 meqavat gücündə olan ölkəmizin iqtisadiyyatına töhfə verəcək və il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak etmələri də söylədiklərimizin əyani sübutudur.

*...Düzdür, 2020-ci ilin payızı bu zamana qədər adət etdiyi vərdişindən tamam fərqli gəlmişdi Vətənimizə. Düşmən biabırçı şəkildə torpaqlarımızı tərk etdi. Ağdamdan, Laçından, Cəbrayıldan, Kəlbəcərdən, Şuşadan olan soydaşlarımız Zəfərin şirinliyini canlarında hiss etdilər. Qəlbən hiss etdilər, ruhən hiss etdilər. 25 noyabr da həmin sevincli günlərdən biri, kəlbəcərlilər üçün tarixə əbədi bayram kimi yazılacaq gündür. Zəfərin mübarək olsun, Kəlbəcər!*

**Məcid RƏŞADƏTOĞLU**

## Festival-konqres çərçivəsində Qərbi Azərbaycanla bağlı sənədli filmlər nümayiş olunub



*Noyabrın 24-də Qərbi Azərbaycana qayıdışa həsr olunmuş festival-konqres çərçivəsində Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Yada Daşı" sənədli filmi nümayiş olunub. Film nümayişində Qərbi Azərbaycan icmasının üzvləri, müəllim və tələbə heyəti olmaqla, ümumilikdə, 300 nəfər iştirak edib.*

Məlumat üçün bildirək ki, "Müasir Yaradıcılığa Dəstək" İctimai Birliyinin hazırladığı sənədli film Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə ərsəyə gəlib. Film qədim Azərbaycan torpağı olan Qərbi Azərbaycanda, Zəngəzurda dağıdılmış tarixi abidələrimiz və vətənsiz qalmış soydaşlarımızın acı taleyindən bəhs edir.






"Gənclik" Mərkəzində nümayiş etdirilən ikinci film "Nəsil ağacı" olub. Film bir neçə ailənin hekayəsi timsalında hazırlanan ensiklopedik ekran əsəri olmaqla Qərbi Azərbaycanın qədim tarixi, etnoqrafiyası, mətbəxi, tanınmış şəxsiyyətləri və yaralı insan taleləri üzərində qurulub.

**Süreyya QƏDİMƏLİYEVA**

### İtmişdir

Culfa rayonunun Göydərə kəndində yaşamış Gülməmmədov Nəriman Xəlil oğlunun adına olan JN-186[A] nömrəli, 10605028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Şahbuzkəndində Xəlilov Kənan Ayaz oğlunun adına verilmiş JN-282 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Əbrəqunus kənd sakini Sadiqov Hüseyn İsmayıl oğlunun adına olan torpaq sahəsinin 564[A], 564[B], 564[C] nömrəli kadastr planları itdiyindən etibarsız sayılır.

***

Kərimov Murad Həsən oğlunun adına Nəzərabad kəndində yerləşən torpaq sahəsinin MH-0070310 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yuxarı Daşarx kənd sakini Calalov Zakir Calal oğlunun adına olan JN-269B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 678